

XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ

Binəqədi rayonunda hesabat yığıncağı keçirilib

SƏH. 2


№13 (150) | 12 avqust 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik


## Qəbələdə “ASAN xidmət” mərkəzinin açılışı olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələ rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub. Həmən gün Azərbaycan Prezidenti Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Qəbələ regional “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib.

Sonra Prezident İlham Əliyev Qəbələ rayon ictimaiyyətinin nümayəndələri və mərkəzin kollektivi ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni inzibati binasının açılışında da iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib burada yaradılan şəraitlə tanış olub.

Müxtəlif iş, xidməti və yardımçı otaqlardan ibarət binada rayon təşkilatının Qadınlar Şurası və Gənclər Birliyi də fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün 60 yerlik konfrans zalı da yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti Qəbələdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında iştirak edib. Prezidentə məlumat verilib ki, Qəbələ rayonunda 24 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdə 860 uşaq təhsil alır. Rayonun tələbatını nəzərə alaraq Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik daha bir yeni məktəbəqədər təhsil müəssisəsi inşa olunub.

Sahəsi 3300 kvadratmetr olan ikimərtəbəli binada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin həyat və fəaliyyətlərini, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın uşaqlara diqqət və qayğısını əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Qrup otaqlarında uşaqların təlim-tərbiyəsi, yataq otaqlarında isə balacaların rahatlığı üçün hər cür şərait var. Bağçada əyləncə, idman və oyun zonası, musiqi otağı, digər təlim və tədris məkanları da yaradılıb. Bağçanın ətrafındakı yaşıllıq zolağı, əyləncə meydançası və attraksionlar da uşaqların çox xoşuna gəlir.

# Bakıda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli Zirvə görüşü keçirilib




Avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.

Zirvə görüşündən əvvəl prezidentlər birgə foto çəkdiriblər.

Sonra dövlət başçıları görüşdə çıxış ediblər.

Zirvə görüşü iştirakçılarını salamlayan Prezident İlham Əliyev bildirib ki, bu gün Bakıda tarixdə ilk dəfə olaraq İran, Rusiya, Azərbaycan prezidentlərinin üçtərəfli görüşü keçirilir: “Bu, tarixi hadisədir. Bu gün üç ölkə arasında yeni əməkdaşlıq formatı yaranır. Prezident xatırladıb ki, əsrlər boyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm Rusiya ilə sıx dostluq əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir.

Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olub və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirib. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir.

İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan edib”.

Prezident çıxışında vurğulayıb ki, hər üç dövləti birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir: “Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir və belə də qalmalıdır. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir. Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda İran və Rusiya şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edir, böyük sərmayə qoyur. Öz növbəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır. Dövlətimizin başçısı bildirib ki, üçtərəfli format iqtisadi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar yaradacaqdır. Rusiya və İran bizim əsas ticarət tərəfdaşlarımızdandır. Əminəm ki, üçtərəfli format ölkələrimizin biznes strukturları üçün də faydalı olacaq. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, qarşılıqlı ixrac imkanlarının genişləndirilməsi iqtisadi əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. Maliyyə, bank, sığorta sektorunda əməkdaşlığın yaxşı perspektivləri vardır. Ölkələrimizin geniş maliyyə imkanlarını nəzərə alaraq biz başqa ölkələrdə müştərək investisiya layihələrində iştirak edə bilərik.

Azərbaycanda sərmayə qoyuluşu üçün münbit şərait yaradılıb. Son 20 ildə Azərbaycana 200 milyard dollar investisiya yatırılıb. Bunun yarısı xarici sərmayədir. Kənd təsərrüfatı, turizm, telekommunikasiya sahələri sərmayə qoyuluşu üçün böyük potensiala malikdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabət qabiliyyətliliyi indeksində Azərbaycan 40-cı yerə layiq görülüb.

Artıq Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. İxrac potensialımız artır. Əminəm ki, birgə səylərlə biz etibarlı enerji dəhlizinin formalaşmasına nail ola bilərik. Bu dəhliz üç ölkə arasında enerji mübadiləsini və yeni bazarlara çıxışı təmin edə bilər. Prezident sərhəd mühafizəsi işində etibarlı əməkdaşlığın mövcudluğunuda deyib. Azərbaycan tərəfinin təşəbbüsü ilə bu il İran, Rusiya, Azərbaycan sərhəd xidmətlərinin rəhbərləri Bakıda görüş keçirib. Bu sahədə əməkdaşlığın dərinləşməsi, birgə təlimlər (o cümlədən Xəzər dənizində), birgə tədbirlər, operativ informasiya mübadiləsi ölkələrimizin təhlükəsizliyini daha da möhkəmləndirəcək.

Sevindirici haldır ki, ölkələrimizdə dini və milli məsələlərdə heç bir problem yoxdur. Bu, bizim ölkələrimizin qazandığı dəyər və sərvətdir.

Azərbaycan nadir dövlətlərdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Avropa Şurasında təmsil olunur. Ölkələrimiz bu təşkilatlar daxilində uğurla əməkdaşlıq edir.

Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsini göstəririk. Biz bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə hətta bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu olan regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik.

Tədbirdə çıxış edən İran Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasına qonaqpərvərliyə və belə bir görüşü keçirməsinə görə minnətdarlığımı bildirıb. İran Prezidenti vurğlayıb ki, İran İslam Respublikasının xarici siyasətinin prinsiplərinə əsasən qonşu ölkələrlə əlaqələrin genişləndirilməsi əsas götürülür. Ona görə də İran hər hansı bir təşəbbüsə, razılaşmalara, anlaşmalara tərəfdardır.

Zirvə görüşündə çıxış edən Rusiya Prezidenti Vladimir Putinin üçtərəfli görüşün təşkil edilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevin ünvanına xoş sözlər səsləndirib. O bildirib ki, Azərbaycan və İran Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlardır: “Üç ölkəni birləşdirən əsas amil geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir”.

Zirvə görüşündə Dövlətimizin başçısı İlham Əliyev yekun nitiqi söyləyib.

Sonda Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Rusiya Prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzalayıblar.


TƏDBİR SƏH. 3



Sahibkarlara dövlət qayğısı günü-gündən artırılır

ANA DİLİ GÜNÜ SƏH. 4



“Balacalarımızla ana dilimizi sevək”

GƏNCLİK SƏH. 6



Uğurlu gələcək əldə etməyin sirri mükəmməl bilikdir


## Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini evinə çay süfrəsinə dəvət edib

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putini evinə çay süfrəsinə dəvət edib.

Prezidentlər çay süfrəsi arxasında səmimi söhbət ediblər.

Dövlət başçıları söhbət zamanı Bakıda Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli Zirvə görüşünün çox uğurla başa çatdığını məmnunluqla qeyd edib, bu tədbirin ölkələrimiz arasında və regionda əməkdaşlığın gücləndirilməsi, əlaqələrin daha da inkişaf etdirilməsi baxımından önəmli rol oynayacağına əminliklərini bildiriblər.

Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezidentlər əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.



# Binəqədi rayonunda hesabat yığıncağı keçirilib

İyulun 22-də Binəqədi rayonunda bu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan hesabat yığıncağı keçirilib. İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası qarşısında ucaldılan abidəsi önünə gül dəstələri düzərək, xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbirdə hesabat məruzəsi ilə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Nazirlər Kabinetinin 2016-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən söz açaraq, bu ilin altı ayı ərzində rayonun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən, həyata keçirilən infrastruktur layihələrdən ətraflı danışıb. Bildirilib ki, ötən 6 ayda ölkə iqtisadiyyatına milyardlarla sərmayə qoyulub və sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb. Ölkədə geniş vüsət alan sosial-iqtisadi inkişaf, aparılan quruculuq-abadlıq işləri Binəqədi rayonunda da yüksək templə davam edir.

Yığıncaqda hesabat məruzəsi ətrafında çıxış edən RİH başçısının müavini Vüsar İsmayılov vurğulayıb ki, cari ilin 6 ayının yekunlarına görə, Binəqədi rayonunun iqtisadiyyatının əsasını təşkil edən sənayenin dinamik inkişafı davam etdirilib və bu müddət ərzində xidmətlər də daxil olmaqla 71 milyon 154 min manatlıq məhsul istehsal olunub. Yeni müəssisələrin yaradılması, mövcud müəssisələrin fəaliyyətinin bərpa edilməsi nəticəsində yeni iş yeri açılıb. Bu ilin 6 ayı ərzində rayonun memarlıq görkəminin daha da yaxşılaşdırılması, təmizlik və abadlıq işlərinin aparılması istiqamətində çoxsaylı tədbirlər reallaşdırılıb. Hesabat dövründə istehlak bazarı dinamik inkişaf etməkdə davam edib və pərakəndə ticarət şəbəkəsindən rayon əhalisinə 604 milyon 618 min manatlıq istehlak malları satılıb. Tikinti sektorunda bütün maliyyə mənbələri hesabına 11 milyon 764 min manat əsas fondlar istifadəyə verilib. Fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 412,4 manat təşkil edib. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 178 milyon 680 min manat olub ki, bunun da 20,0 faizi dövlət müəssisələrinin payına düşmüşdür.

Hesabat dövründə əhalinin məşğulluğu barədə Binəqədi Rayon Məşğulluq Mərkəzi tərəfindən məlumat verilib. Görülən işlərlə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına mütəmadi məlumatlar təqdim edilib. Bildirilib ki, Binəqədi rayonu ərazisində fevral ayının 1-dən iyun ayının 31-dək 1290 yeni iş yeri açılıb, 1159 şəxs işlə təmin olunub. O cümlədən rayon ərazisində abadlıq, mənzil fondunun əsaslı təmiri,ağac əkimi və digər ictimai işlərə cəlb olunmaq üçün 711 nəfər vətəndaşın işlə təmin olunması nəzərdə tutulub və onlardan artıq 693 nəfəri işlə təmin edilib.

Əhalinin sosial təminatının yaxşılaşdırılması məqsədilə cari ilin 6 ayı ərzində 3138 ailəyə və ya 12539 nəfər ailə üzvünə ünvanlı dövlət sosial yardım təyin olunub. Hazırda 3886 nəfər təqaüd alır və Binəqədi rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 247 nəfər tək ahıl vətəndaşa və əlilə xidmət göstərilir. 2016-cı ilin 6 ayı ərzində 33896 pensiyaçıya xidmət göstərilib. Ödənilən pensiya məbləği 44,6 milyon manat olub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,4 milyon manat çoxdur. Rayon üzrə orta pensiya məbləği artaraq 219,3 manat təşkil edib.

Çıxışda vurğulanıb ki, bu il iyul ayının 1-i vəziyyətinə Binəqədi rayonunda daimi qeydiyyatda olan əhalinin sayı 261 min 800 nəfər olub. Bu müddət ərzində rayonda 1914 nəfərin doğumu və 646 nəfərin ölümü qeydə alınıb. Təbii artım isə 1268 nəfər təşkil edib. Cari ilin yanvar-iyun aylarında 721 nikah və 286 boşanma halları qeydə alınıb.

Binəqədi rayonu ərazisində respublikanın işğal olunmuş bölgələrindən olan 13439 ailə - 53119 nəfər məcburi köçkün faktiki məskunlaşıb.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər Binəqədi rayonu ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, rayonun mikrorayonlarında və qəsəbələrində yeni parklar, xiyabanlar, yaşayış məntəqələrində nümunəvi məhəllələr salınıb, park və məhəllələrdə çoxsaylı müasir oturacaqlar, uşaq idman-oyuncaq elementləri, quraşdırılıb, yol kənarlarında və nümunəvi məhəllələrdə milli ornamentləri özündə əks etdirən landşaft memarlığına uyğun çəmən örtüyü , həmin çəmənliklərdə müasir dekorativ və ekzotik ağac növləri əkilib.







Rayon ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən abadlıq-quruculuq işləri çərçivəsində 2016-cı ilin 6 ayı ərzində qəsəbələrarası və məhəllədaxili yollarda, mərkəzi prospektlərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenidənqurma və əsaslı təmir işləri aparılıb, bu istiqamətdə işlər bu gün də davam etdirilməkdədir. Rayon ərazisində ümumilikdə 492 çoxmənzilli yaşayış binası mövcuddur ki, 6 ayı ərzində yaşayış binalarında 1919 m2 yumşaq dam örtüyü cari təmir edilib, 27351 m2 çardaqlı dam örtüyü, 1297 giriş kənar əşyalardan təmizlənib, 135 girişdə yeni plastik pəncərə quraşdırılıb, binaların zirzəmilərində 615 p/m su, 621 p/m kanalizasiya xətti dəyişdirilib, mikrorayonlar və Biləcəri qəsəbəsi ərazisində abad həyətlərdə təmizlik və cari təmir işləri aparılıb, mərkəzi küçələrdə bütün işıq dirəkləri yuyulub, 724 liftin kabinalarında proflaktik təmizlik işləri görülüb. Abad məhəllələrdə olan idman uşaq və əyləncə qurğuları təmizlənib və cari təmir edilib. Rayon ərazisində yol təsərrüfatının yaxşılaşdırılması məqsədilə qəsəbələrdə və digər ərazilərdə birinci növbədə asfaltlanmasına ciddi ehtiyac olan küçə və yollar müəyyənləşdirilərək aidiyyəti qurumlar qarşısında məsələ qaldırılıb.

“Azəravtoyol” ASC tərəfindən Azadlıq prospektinin yenidən qurulması və yolun genişləndirilməsi işləri həyata keçirilib, 4030 p/m mərmər səki daşları düzülüb, əraziyə 45200 m2 yeni asfalt örtüyü salınıb. Yenidənqurma işləri başa çatdırıldıqdan sonra prospekt boyunca Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə yol kənarlarında yaşıllıq zolağı salınaraq 4500 m2 çəmən örtüyü, 116 ədəd dekorativ ağac və 15135 ədəd müxtəlif növ bəzək gül-çiçək kollarının əkilməsi işlərinə başlanılıb və bu istiqamətdə işlər davam etdirilməkdədir. Həmçinin, Binəqədi rayonu, S.S.Axundov küçəsində də abadlıq işləri həyata keçirilib, ərazidəki yaşayış binalarının ətrafına ümumilikdə 1505 kv.m asfalt örtüyü salınıb. Mənzil fondunun yaxşılaşdırılması məqsədilə binalarda tüstü kanalları tutulmuş mənzillərin siyahıları dəqiqləşdirilərək zəruri tədbirlərin həyata keçirilməsi üçün səlahiyyətli qurumlara təqdim edilib. 3945 mənzilin tüstü və ventilyasiya kanallarına baxış keçirilib, 1200 mənzilin tüstü bacaları təmizlənib.

Dövr ərzində rayon ərazisində mövcud olan yaşıllıq sahələrində mövsümi budama işləri aparılıb, quru ağaclar təmizlənib, çoxillik güllərə qulluq göstərilib, vaxtaşırı suvarılıb, parklar quru ot və alaqlardan təmizlənib, ərazidə olan çəmənliklərə gübrə verilib. M.Ə.Rəsulzadə qəsəbəsində 15 ədəd Xan Çinarı, 20 ədəd şam ağacı, 3000 ədəd gül, Azadlıq prospektində 5000 ədəd gül əkilib.

Rayon ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində hesabat dövründə məişət tullantılarının yığılması və daşınmasında mövcud olan bir sıra problemlər öz həllini tapıb, bu sahəyə xüsusi diqqət ayrılıb. Məişət tullantıları konteynerləri cari təmir olunub və rənglənib. Bərk məişət tullantılarının müvəqqəti toplanması üçün yaşayış məskənlərində 137 konteyneraltı meydança, 375 uyğunlaşdırılmış sahələrdə (yaşayış binalarının ətrafında, məhəllələrdə, küçələrin kənarında və s.) 2078 ədəd konteynerdən, məişət tullantılarının mütəmadi daşınması üçün ümumilikdə 38 ədəd xüsusi təyinatlı maşından istifadə olunub.

Natiq bildirib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bakı şəhəri Binəqədi və Qaradağ rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə” 8 saylı 22 yanvar 2016-cı il tarixli Qərarı ilə “pilot layihə” formatında beş il müddətinə Binəqədi Rayon İcra Hakimiyyətinə mülki, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən binaların, sosial və digər təyinatlı qeyri-yaşayış obyektlərinin sökülməsini və yenidən qurulmasını, dövlət mülkiyyətində olan torpaqların daimi istifadəyə və icarəyə verilməsini, mənzil fondunun yenilənməsi və görülmüş işlər barədə Nazirlər Kabinetinə məlumat verilməsi tapşırılıb. Qarşıya qoyulmuş vəzifələrin icrasının təmin edilməsi, görüləcək işlərin davamlılığının təşkil edilməsi, cari və perspektiv iş planının müəyyən edilməsi məqsədilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 27 yanvar 2016-cı il tarixli 17 saylı sərəncamı imzalanıb. Binəqədi rayonu üzrə 1247 ailə yaşayan 49 çoxməzilli yaşayış binalarının, həmçinin Biləcəri qəsəbəsinin ərazisində yeraltı qaz sızması aşkar olunmuş zonadakı 166 fərdi yaşayış evi müəyyənləşdirilib. Qəzalı vəziyyətdə olan binaların sökülərək yerində yeni binaların tikintisinin həyata keçirilməsi məqsədilə müvafiq şirkətlərlə rayon icra hakimiyyəti arasında müqavilə bağlanıb. Qeyri-yaşayış sahələrinin sahiblərinin yeni yaşayış binlarının 1-ci mərtəbəsində və zirzəmisində inşa ediləcək ümumi sahəsi 24191 m2 olan yeni qaraj və qeyri-yaşayış sahələri ilə təmin edilməsi nəzərdə tutulub.

Həmçinin müəyyən olunmuş şirkət tərəfindən qəzalı binalarda yaşayan sakinlərin hər ay kirayə haqqının ödənilməsi və köçürülməsi təmin olunmaqla hər biri 2 mərtəbəli 2 binanın, o cümlədən Azadlıq prospekti 10-da 22 mənzilli, Azadlıq prospekti 12-də 22 mənzilli binaların sökülərək yerində 18 mərtəbəli yeni yaşayış binasının tikintisi həyata keçiriləcəkdir.

Hesabatda vurğulanıb ki, 2016-cı ilin 6 ayı ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının ümumilikdə 15 görüşü, o cümlədən 2 səyyar qəbulu, 13 səyyar görüşü keçirilib. Həmin görüşlərdə icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının və xidmət sahələrinin rəhbərlərinin iştirakı təmin edilib. Keçirilən görüşlərdə ümumilikdə 1538 nəfər vətəndaş iştirak edib, 165 məsələ qaldırılıb.

Məlumdur ki, vətəndaş məmnunluğunun təmini, hüquq, azadlıq və qanuni maraqların müdafiəsi, korrupsiyaya qarşı mübarizə, ictimai etimadın formalaşdırılması dövrün zərurətinə çevrilib. Bu istiqamətdə vətəndaş müraciətlərinin cavablandırılması, vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Hesabat dövründə vətəndaşlardan ümumilikdə 1744 müraciət daxil olub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 110 vahid və ya 5,9% azdır. Dövr ərzində Binəqədi rayonundan daxil olmuş vətəndaş müraciətlərindən 1397-si ərizə və 347-si şikayət olub.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına 2016-cı ilin yanvar-iyun aylarında daxil olmuş vətəndaş müraciətlərinə baxılmasının mövzular və növlər üzrə bölgüsü barədə məlumatlar təhlil olunaraq müəyyən edilib ki, müraciətlərin əsasən 30,3%-i şəhərsalma və tikinti məsələləri, 15,7%-i mənzil məsələləri, qalan müraciətlər – 12,1%-i əmək və əhalinin sosial müdafiəsi məsələləri, 3,1%-i su-kanalizasiya, qaz, enerji və istilik problemləri ilə bağlı məsələlər, 0,6%-i nəqliyyat məsələləri, 2,6% qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, 1,7%-i ailə-məişət məsələləri, 1% qəbul məsələləri, 17,7% şəhər, rayon icra hakimiyyətlərinin və bələdiyyələrin fəaliyyəti ilə əlaqədar, 1,8% vəzifəli şəxslərin hərəkət və hərəkətsizliyi, 13,4% digər mövzular ilə əlaqədar olubmuşdur.

Bu ilin yanvar-iyun ayları ərzində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 2227 vətəndaş, RİH başçısı tərəfindən isə 161 vətəndaş qəbul edilib. Aparatın 2016-ci il üçün təsdiq edilmiş İş planına uyğun olaraq, hesabat dövründə 12 Şura iclası keçirilib və 16 məsələ müzakirəyə çıxarılıb. Müzakirə olunan məsələlərlə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən verilmiş tapşırıqların icrası məqsədilə, o cümlədən mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülür.

Hesabat dövrü ərzində milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd edilməsi, rayonda fəaliyyət göstərən ictimai təşkilatlar, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, siyasi partiyalar və dini qurumlarla qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası prioritet istiqamətlərdən olub.

Əhalinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin tapşırıqlarından irəli gələn vəzifələrin icrası məqsədilə rayonun 8 tibb müəssisəsi bu işlərə cəlb olunub və bütün səhiyyə ocaqlarında əhalinin tibbi-proflaktik müayinədən keçirilməsi üçün hərtərəfli şərait yaradılıb, nəticədə fevral-may ayları ərzində rayon əhalisindən 164321 nəfəri tibbi müayinədən keçib. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sərəncamına əsasən, rayonda fəaliyyət göstərən səhiyyə müəssisələrinin kollektivləri əhaliyə səhiyyə xidmətinin təşkilində fəal iştirakına görə və 17 iyun – Tibb işçilərinin peşə bayramı münasibəti ilə Fəxri fərmanlarla təltif edilib. Bu il aprelin 1-də Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında “Qarabağ həftəsi” layihəsinə start verilib. Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən layihə may ayı ərzində silsilə olaraq davam etdirilib və Binəqədi rayonunda yerləşən bütün orta ümumtəhsil məktəblərini əhatə edib. Layihənin həyata keçirilməsində əsas məqsəd dövlətimiz və xalqımız üçün hər zaman aktual və müqəddəs amallardan olan vətənpərvərliyin təbliği, Azərbaycanın əzəli tarixi torpaqları olan Dağlıq Qarabağın ermənilər tərəfindən işğalı faktının geniş ictimaiyyətə çatdırılmasından ibarət idi.

Aprel ayının 27-də Binəqədi rayonunda görkəmli oftolmoloq alim, Azərbaycan tibb elminə misilsiz töhfələr bəxş etmiş akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə tədbir, may ayının 10-da isə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə genişmiqyaslı ağacəkmə aksiyası keçirilib. Həmçinin 28 May - Respublika günü, Dövlət qulluqçularının peşə bayramı da təntənəli şəkildə qeyd olunub. Ümumilikdə Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə 200-dən çox tədbir keçirilib.

Çıxışda vurğulanıb ki, Binəqədi Rayon İcra Hakimiyyətində rayon sakinlərinin qarşılaşdığı problemlərin həll edilməsi istiqamətində operativ tədbirlər həyata keçirmək, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsini yüksəltmək üçün yaradılmış Sakinlərin Müraciət Xidmətinə 1 yanvar 2016 - 30 iyun 2016-cı il tarixədək 18 min 304 zəng daxil olub. Şikayət xaraqterli 4179 müraciətin, 3433-ü və ya 82,2 %-i tam həll olunub, 319-u və ya 7,6 %-i qismən həll edilib, 427-si və ya 10,2 %-nə müvafiq izahat verilərək həll olunub.

Həmçinin hesabat dövrü ərzində informasiya texnologiyaları sahəsinin genişləndirilməsi işinin davam etdirilməsi məqsədilə yeni məlumatların yerləşdirilməsi, İKT sahəsində fəaliyyətə gündəlik nəzarətin və monitorinqin aparılması, informasiya ehtiyatının yaradılmasında istifadə olunmuş texnologiyalarda baş verən yeniliklərin nəzərə alınaraq aşkar olunan qüsurların aradan qaldırılması və müvafiq yenilənmələrin həyata keçirilməsi təmin edilib. Belə ki, rayon icra hakimiyyətinin saytında yaradılmış bütün menyularda olan məlumatların yenilənməsi prosesi operativ olaraq təmin edilib və rayonda keçirilmiş müxtəlif tədbirlər barədə ətraflı məlumatlar saytın əsas bölməsində yerləşdirilib. Binəqədi RİH başçısının tapşırığına əsasən, saytda yeni İqtisadiyyat menyusu və onun altbölmələri yaradılaraq rayonun inkişafının sosial-iqtisadi göstəriciləri ilə əlaqədar məlumatlar həmin bölməyə əlavə edilib.

*Ardı səh. 3-də*

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu,**
**Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

“Binəqədi” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Sahibkarlara dövlət qayğısı günü-gündən artırılır

Binəqədi rayonunda təşkil olunan növbəti işgüzar forum bunu bir daha təsdiq etdi



Avqustun 9-da Binəqədi rayonunda sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair növbəti işgüzar forum keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev, rayon sahibkarları və kredit təşkilatlarının rəhbərləri iştirak ediblər.



Əvvəlcə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra forumu açıq elan edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov bildirib ki, ölkəmizdə gedən dinamik iqtisadi inkişafın təzahürü bütün sahələrdə özünü göstərir. Qeyd olunub ki, Binəqədi rayonu ərazisində sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə iş adamlarının hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə Apelyasiya Şurası yaradılıb və tərkibi təsdiq olunub. Sahibkarlardan və rayon sakinlərindən daxil olmuş məlumatlara baxılmasının operativliyini təmin etmək məqsədilə RİH başçısı Aparatında 1646 - Sakinlərin Müraciət Xidmətində 012-562-48-32 (544, 533) nömrəli qaynar xətt yaradılıb, bununla bağlı informasiya icra hakimiyyəti Aparatının elektron saytında və "facebook" səhifəsində yerləşdirilib.

Daha sonra çıxış edən Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirib ki, 2016-cı ilin ötən dövrü ərzində ölkə üzrə 1542 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 91,5 milyon manat güzəştli kredit yönəldilib. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 4600-dan çox yeni iş yerinin yaradılmasına imkan verir. Ümumilikdə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 1284 investisiya layihəsinin maliyyələşdirilməsinə 326,4 milyon manat güzəştli kredit verilib.

İşgüzar forum çərçivəsində müvəkkil kredit təşkilatları vasitəsilə 20 sahibkarlıq subyektinə 3,2 milyon manat güzəştli kredit verilib. Həmin kreditlər, əsasən, heyvandarlıq, quşçuluq, istixana kompleksinin yaradılması, çörək və un məmulatları, plastik məmulatlar istehsalı və s. sahələrin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması 170 yeni iş yerinin yaradılmasına imkan yaradacaq.

Forum çərçivəsində Binəqədi rayonunun Rəsulzadə qəsəbəsində gündəlik istehsal gücü 46,3 ton olan çörək və ildə 180 ton şirniyyat istehsal etmək iqtidarlnda olan zavoda və ildə 30 min ton PVC tərkibli yarımfabrikatları istehsal etmək gücündə olan tikinti materialları istehsalı müəssisəsinə baxış keçirilib. Ümumilikdə, son illər tikinti materiallarının istehsalı ilə bağlı yeni texnologiyalara əsaslanan 25 investisiya layihəsinin maliyyələşdirilməsinə 84,4 milyon manat güzəştli kredit verilib. Artıq bu müəssisələrdən 20-si fəaliyyətə başlayıb. Həmin müəssisələrdə istehsal olunan məhsullar idxalı əvəz etməklə yanaşı, ölkənin sənaye potensialının reallaşdırılmasında mühüm rol oynayacaqdır. Sahibkarlığa Kömək Milli Fondu iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsini davam etdirir. İşgüzar forumda güzəştli kreditlərin alınması mexanizmi barədə sahibkarlara ətraflı məlumatlar verilib, Binəqədidə həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr təqdim edilib, sahibkarların investisiya layihələri maliyyələşdirilib.

# "Referendum və onun siyasi-hüquqi əhəmiyyəti" mövzusunda tədbir



Avqustun 1-də Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi RİH yanında İctimai Şura və YAP Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Referendum və onun siyasi-hüquqi əhəmiyyəti" mövzusuda maarifləndirici tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, YAP rayon təşkilatının sədri Ramiz Göyüşov, İctimai Şuranın sədri Aslan Mehdiyev, ASAN Təlim-Tədris Mərkəzinin müdiri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Nazənin Hüseynova və rayon ictimaiyyəti iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan Aygün Əliyeva ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi əsasında bu ilin 26 sentyabr tarixində Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsinin (referendum) keçiriləcəyini bildirib. O, referendumun keçirilməsi təşəbbüsünün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasətin məntiqi nəticəsi olduğunu vurğulayıb. RİH başçısının müavini son illər ölkəmizdə bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini və bu səbəbdən də qanunvericilik bazasının təkmilləşdirilməsinin mühüm əhəmiyyət daşıdığını söyləyib.

Tədbirdə çıxış edən Ramiz Göyüşov Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərin siyasi əhəmiyyətini qeyd edərək bu təşəbbüsün Azərbaycanın növbəti uğurlarına hədəflənidiyini bildirib. Onun sözlərinə görə, cəmiyyət inkişaf etdikcə Konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi zərurəti yaranır. Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər 29 maddəni əhatə edir. Bunlardan 23-ü müvafiq maddələrdə dəyişiklikləri, 6-sı isə yeni əlavələri nəzərdə tutur. Dəyişiklik və əlavələrdə insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, qanunvericilik və icra hakimiyyətində idarəetmə sisteminin təkmilləşdirilməsi və digər məsələlər öz əksini tapıb.

Aslan Mehdiyev isə çıxışında Azərbaycan cəmiyyətinin daim inkişaf etdiyini və bu inkişafın nəticəsi olaraq daha mütərəqqi və təkmilləşdirilmiş qanunların tətbiq edilməsi zərurətinin yarandığını qeyd edib. Konstitusiyaya ediləcək əlavə və dəyişikliklərlə bağlı referendum aktı layihəsinin yüksək əhəmiyyətini vurğulayan natiq bu vacib siyasi qərarın xalqımız tərəfindən yüksək səviyyədə baş tutacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən Nazənin Hüseynova Konstitusiyanın müvafiq maddələrinin müqayisəli təhlilini aparıb, qeyd edilən bütün əlavə və dəyişikliklərin dövlətimizin və millətimizin inkişafına, daha böyük uğurlar qazanmasına zəmin yaradacağını söyləyib. O, əlavə və dəyişikliklərin geniş hüquqi təhlilini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbir diskussiya şəklində davam etdirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Ümumxalq səsverməsi ilə bağlı yığıncaq



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının qərargahında bu ilin 26 sentyabr tarixində keçiriləcək ümumxalq səsverməsi (referendum) ilə bağlı yığıncaq keçirilib. Tədbirdə Binəqədi rayonunda referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması və YAP-ın "Yeni Azərbaycan" təşəbbüs qrupunda təmsil olunacaq nümayəndələrin seçilməsi ilə bağlı məsələlər müzakirə edilib.

Yığıncağı giriş nitqi ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsinin Konstitusiya Məhkəməsinə göndərilməsi barədə sərəncamının ölkəmiz üçün mühüm əhəmiyyətindən danışaraq bildirib ki, ölkəmiz müstəqilliyinin 25 ili ərzində sürətlə inkişaf edərək dünya birliyinə müvəffəqiyyətlə inteqrasiya edir, müxtəlif beynəlxalq konvensiyalara qoşulub. Bütün bu dəyişikliklər ölkəmizin əsas qanunu olan Konstitusiyamızda dəyişikliklərin və əlavələrin aparılmasını zəruri edir. Konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər 29 maddəni əhatə etməklə 23-ü dəyişiklikləri, 6-sı isə yeni əlavələri nəzərdə tutur. Dəyişiklik və əlavələrdə insan hüquq və azadlıqlarının qorunması, təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, qanunvericilik və icra hakimiyyətində idarəetmə sisteminin təkmilləşdirilməsi və digər məsələlər öz əksini tapmışdır. Sədr daha sonra referendum üzrə ilkin təşəbbüs qrupunun yaradılması barədə ətraflı məlumat verib.

Yığıncaqda çıxış edən Milli Məclisin komitə sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov Azərbaycan Respublikası Konstitusiyasına təklif olunan əlavə dəyişikliklərin zamanın diqtəsindən irəli gəldiyini əsaslandırıb və bu barədə ətraflı məlumat verib. O, təklif olunan əlavə və dəyişikliklərin respublika əhalisi tərəfindən rəğbətlə qarşılanacağına əmin olduğunu bildirib.

Milli Məclisin deputatı Kamaləddin Qafarov da çıxışında Prezident İlham Əliyev tərəfindən Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin müasir tələblərdən irəli gəldiyini söyləyib. Bir millət vəkili olaraq həmin əlavə və dəyişiklikləri alqışladığını və dəstəklədiyini qeyd edib. Əmin olduğunu bildirib ki, təklif olunan əlavə və dəyişikliklər əhali tərəfindən müsbət qarşılanacaq və referendum günü seçicilər öz dəstəyini verəcəklər.

Yığıncaqda YAP Binəqədi rayon təşkilatının referendum üzrə ilkin təşəbbüs qrupuna 72 nəfərdən ibarət üzv və YAP-ın referendum üzrə yaradılacaq "Yeni Azərbaycan" təşəbbüs qrupuna təmsilçilik normaları nəzərə alınmaqla 7 nəfərdən ibarət heyət seçilib.

Tədbirin sonunda YAP Binəqədi rayon təşkilatının Şura üzvləri Rəfiqə Budaqova və Gülnarə Həşimova fəal işlərinə və 70 illik yubileyləri münasibətilə Fəxri fərmanla təltif ediliblər.

# Binəqədi rayonunda hesabat yığıncağı keçirilib

*Əvvəli səh 2-də*

Bildirilib ki, rayon ərazisində qəsəbələrdə su təchizatının və kanalizasiya şəbəkəsinin yaxşılaşdırılması, çoxmənzilli yaşayış binalarında lift təsərrüfatının cari və əsaslı təmiri, yeniləşdirilməsi və müasirləşdirilməsi işlərinin davam etdirilməsi, Dərnəgül yaşayış sahəsində yerləşən qəzalı yataqxana binalarında 1000-ə yaxın məcburi köçkünün məskunlaşması, Biləcəri M.Ə.Rəsulzadə Xocəsən qəsəbələində, Aşağı və Yuxarı Sulutəpə yaşayış massivlərində baş verən subasma hallarının qarşısını almaq məqsədilə ümumi kanalizasiya şəbəkəsinin qurulması, Bakı şəhəri ərazisində yeni inşa edilmiş hündür mərtəbəli yaşayış binalarının istismara qəbulu və burada yaşayan vətəndaşların mənzillərini sənədləşdirərək onların rəsmi qeydiyyata alınması və qəsəbədaxili yolların təmirə ehtiyacın olması kimi zəruri problemlərin olması barədə də məlumat verilib.

Sonda qeyd olunub ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında yekun nitqində ixracyönümlü iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta sahibkarlığın gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib. Azərbaycanda xalçaçılıq sənayesinin, baramaçılığın, pambıqçılığın və tütünçülüyün inkişafına dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi, zəruri ərzaq məhsulları ilə təminatın, ət və süd məhsullarına olan tələbatın ödənilməsi, meliorativ tədbirlərin davam etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, o cümlədən turizm sənayesinin yaradılması istiqamətində görülən tədbirlərin davamlı olması ilə bağlı göstərişlər verən dövlətimizin başçısı son illərdə Bakıda keçirilən beynəlxalq tədbirlərin, həmçinin Formula-1 Avropa Qran-prisinin ölkəmizdə turizmin inkişafına ciddi dəstək verdiyini bildirib. Bundan əlavə, Prezident İlham Əliyev "ASAN xidmət"in fəaliyyətinə toxunaraq artıq bu quruma yarandığı vaxtdan indiyə qədər 10 milyon müraciət edildiyini, ölkədə 9 "ASAN xidmət" mərkəzinin fəaliyyət göstərdiyini, bu il isə Masallı və Qəbələdə yeni mərkəzlərin yaradılacağını diqqətə çatdırıb: "Biz də öz növbəmizdə cənab Prezidentin tapşırıqlarına və tövsiyələrinə əsasən, Binəqədi rayonunda sosial-iqtisadi infrastruktur layihələrinin yüksək səviyyədə icra edilməsi, işsizlik səviyəsinin azaldılması, sənaye sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə müvafiq dəstəklərin göstərilməsi, sakinlərin məmnunluq səviyyəsinin artırılmasına dair bütün lazımi tədbirlərin həyata keçirməsini qarşımıza məqsəd qoyuruq".



Yığıncaqda hesabat məruzəsi ətrafında çıxış edənlər ötən 6 ay ərzində ölkəmizin, eləcə də Binəqədi rayonunun sosial-iqtisadi və mədəni-ictimai həyatında əldə olunan uğurlu nəticələrdən danışıblar və qarşıda duran vəzifələri müzakirə ediblər.

Tədbirin sonunda Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəsi Ləman Əliyeva rayonun ictimai- siyasi həyatında fəal iştirakına və 50 illik yubileyi münasibəti ilə icra hakimiyyətinin başçısı tərəfindən Fəxri fərmanla təltif edilib.

# "İctimai və humanitar" sektorun nümayəndələri ilə görüş



Binəqədi Rayon İcra Hakimiyyəti ilə rayon ərazisində yerləşən 5 bələdiyyə arasında "Səmərəli əməkdaşlıq və fəaliyyətin əlaqələndirilməsində yeni perspektivlər" adlı keçirilən seminar-müşavirə öz işini başa çatdırıb. Avqustun 4-də seminar-müşavirənin yekunu olaraq bələdiyyə sədrləri və bələdiyyələrdə yaradılan "İctimai və humanitar" sektorun rəhbərləri ilə görüş keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, rayon ərazisində yerləşən 5 bələdiyyənin sədrləri və bələdiyyələrdə yaradılan "İctimai və humanitar" sektorun nümayəndələri iştirak ediblər.

Görüşdə çıxış edən Aygün Əliyeva seminar-müşavirənin işini yüksək qiymətləndirmiş və bunun nəticəsi olaraq bələdiyyələrdə "İctimai və humanitar" sektorun yaradılmasının mühüm əhəmiyyətini vurğulayıb. Sonra bələdiyyə sədrləri çıxış edərək sektorun qarşıya qoyduğu hədəflər və görülməsi nəzərdə tutulan təkliflər ətrafında fikir mübadiləsi aparıblar. Diqqətə çatdırılıb ki, bu sektorların yaradılması bələdiyyələrlə sakinlər arasında əlaqələri daha da sıxlaşdıracaq, keçirilən sosial layihələr yerli özünüidarəetmə orqanlarının cəmiyyətdə nüfuzuna müsbət təsirini göstərəcəkdir.

# Seminar-müşavirə



Binəqədi Rayon İcra Hakimiyyəti ilə Binəqədi qəsəbə bələdiyyəsi arasında "Səmərəli əməkdaşlıq və fəaliyyətin əlaqələndirilməsində yeni perspektivlər" adlı seminar-müşavirə keçirilib. Tədbirdə Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsini, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin əməkdaşları, Binəqədi qəsəbə bələdiyyəsinin sədri, bələdiyyə quluqçuları və rayon icra hakimiyyətində təcrübədə olan "ASAN könüllüləri" iştirak ediblər.

Görüşdə dini radikalizm və ekstremizmə qarşı effektiv tədbirlərin həyata keçirilməsi, PR və mətbuatla iş, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlarla işin koordinasiyalı qurulması və gənclərin asudə vaxtlarının səmərəli təşkili, sosial layihələrin keçirilməsi istiqamətində qarşılıqlı fikir mübadiləsi aparılıb.

Təqdimatlardan sonra hər iki tərəf arasında ictimai-siyasi və humanitar məsələlər sahəsində, o cümlədən təhsil, məktəbəqədər təhsil, səhiyyə, din, mədəniyyət, KİV-lə əməkdaşlıq, sosial şəbəkələrlə işin təkmilləşdirilməsi və eyni zamanda sosial layihələrin icra edilməsi üzrə müzakirələr aparılıb. Müzakirələr zamanı bir sıra mühüm təkliflər irəli sürülüb, tədbirlər planının hazırlanması tövsiyə olunub.

Tədbir zamanı Binəqədi qəsəbə bələdiyyəsində yeni yaradılmış İctimai-humanitar sektor haqqında məlumat verilib və ona rəhbərlik edəcək bələdiyyə üzvi Mətanət Nəsibova icra hakimiyyətinin məsul əməkdaşlarına təqdim edilib.

"Səmərəli əməkdaşlıq və fəaliyyətin əlaqələndirilməsində yeni perspektivlər" adlı seminar – müşavirə Binəqədi Rayon İcra Hakimiyyəti ilə Biləcəri bələdiyyəsi arasında da keçirilib.

Seminar – müşavirədən öncə Biləcəri bələdiyyəsinin inzibati binası və bələdiyyənin şöbələrində görülən işlərlə tanışlıq olub.

Keçirilən seminar – müşavirədə Binəqədi rayon İcra Hakimiyyəti Aparatının İctimai – siyasi və humanitar məsələlər, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin əməkdaşları, Biləcəri bələdiyyəsinin sədri, bələdiyyə quluqçuları və Binəqədi rayon İcra Hakimiyyətində təcrübədə olan "ASAN könüllüləri" iştirak ediblər.

Keçirilən görüşdə dini radikalizm və ektremizmə qarşı effektiv tədbirlərin həyata keçirilməsi, PR və mətbuatla iş, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlarla işin koordinasiyalı qurulması və gənclərin asudə vaxtlarını səmərəli təşkili, sosial layihələrin keçirilməsi istiqamətində qarşılıqlı fikir mübadiləsi aparılıb.

İlk olaraq görüşü Binəqədi rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Rauf Həsənov açaraq RİH-nin məsul əməkdaşlarını bələdiyyə qulluqçularına təqdim etmiş və görüşün proqramı haqqında məlumat verib.



Sonra Biləcəri bələdiyyəsinin sədri Hikmət Quliyev bələdiyyə quluqçularını təqdim edib və görüşün səmərəliyi haqqında məlumat verib. Təqdimatlardan sonra hər iki tərəf arasında İctimai – siyasi və humanitar məsələlər sahəsində o cümlədən, təhsil, məktəbəqədər təhsil, səhiyyə, din, mədəniyyət, KİV-lə əməkdaşlıq, sosial şəbəkələrlə işin təkmilləşdirilməsi və eyni zamanda sosial layihələrin icra edilməsi sahəsində müzakirələr aparılb. Müzakirələr zamanı bir sıra mühüm təkliflər irəli sürülüb və həmin təkliflərdən ibarət tədbirlər planının hazırlanması tövsiyyə olunub.

Müzakirələr zamanı Binəqədi rayon İcra Hakimiyyətində təcrübə keçən "ASAN könüllüləri" də təkliflərini irəli sürərək çıxış ediblər.

Tədbir zamanı Biləcəri Bələdiyyəsində yeni yaradılmış İctimai-humanitar sektor haqqında məlumat verilib və ona rəhbərlik edəcək bələdiyyə üzvi Leyla Əliyeva Rayon İcra Hakimiyyətinin məsul əməkdaşlarına təqdim olunub. Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# "Balacalarımızla ana dilimizi sevək"



Binəqədi Rayon İcra Hakimiyyətinin və Biləcəri bələdiyyəsinin təşkilatçılığı ilə 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü münasibətilə Binəqədi rayonu Mərkəzləşdirilmiş Kitabxana Sistemində tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, Biləcəri bələdiyyəsinin sədri Hikmət Quliyev, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin müdir müavini Xuraman Ələkbərova, 298 saylı körpələr evi-uşaq bağçasının müdiri İradə Əhmədova və bağçanın balaca fidanları iştirak ediblər.

Xuraman Ələkbərova kitabxana haqqında geniş məlumat verdikdən sonra Leyla Kərimova "Balacalarımızla ana dilimizi sevək" adlı tədbir haqqında məlumat verib və 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili gününün yaranma tarixi barədə çıxış edib. Hikmət Quliyev isə balaca fidanlarımıza hələ erkən yaşından kitab sevgisinin aşılanmasında bu cür layihələrin rolunun danılmaz olduğunu diqqətə çatdırıb.

Sonra iştirakçılar kitabxanada təşkil olunan uşaqlar aləmi, multikulturalizm və ana dili guşələri ilə yaxından tanış olublar. Ana dili ilə bağlı şeirlər söyləyən balaca fidanlar dövlət himnimizi ifa ediblər. Müxtəlif nağıl personajlarını nümayiş etdirən körpələr "Əlifba", "Ana dili" sözləri yazılmış maraqlı flaşmob nümayiş etdiriblər.

# "Onların arzuları üçün birləşək"





Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Binəqədi bələdiyyəsinin və rayonda yerləşən "İdrak" liseyinin təşkilatçılığı ilə "1 avqust – Azərbaycan əlifbası və Azərbaycan dili" günü münasibətilə "Onların arzuları üçün birləşək" adlı sosial aksiya keçirilib.

Aksiyada Binəqədi rayonunda yerləşən 272 saylı körpələr-evi uşaq bağçasının balaca fidanları iştirak ediblər. Onlar üçün maraqlı bir gün təşkil edilib və müxtəlif personajların geyimlərini əks etdirən uşaqlar rayon ərazisinə tura çıxıblar. Azadlıq prospekti və Heydər Əliyev adına istirahət parkını gəzərək müxtəlif personajları nümayiş etdirən balacaların aksiyası insanlarda xoş əhval-ruhiyyə yaradıb. Gəzintinin sonunda balaca fidanlar Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında nahar ediblər.

"Onların arzuları üçün birləşək" adlı sosial aksiyanın növbəti qonaqları 298 saylı körpələr evi - uşaq bağçasının balaca fidanları olublar. Biləcəri bələdiyyəsi ilə birgə təşkil edilən aksiyada gələcəyimiz olan balacalar doyunca əyləniblər.

Davamlı olaraq keçiriləcək aksiyanın əsas məqsədi məktəbəqədər müəssisələrdə təhsil alan aztəminatlı ailələrin uşaqları da daxil olmaqla, ümumillikdə balacalar üçün önəmli günlərdə onların arzu və istəklərini həyata keçirməkdir.

# "Fəlsəfi söhbət" layihəsinə start verilib



Binəqədi Rayon Gənclər və İdman İdarəsi, YAP rayon təşkilatının Gənclər Birliyi və "Gənc Psixoloqlar" İctimai Birliyinin təşkilatçılığı ilə reallaşdırılan "Fəlsəfi söhbət" layihəsinin açılış mərasimi və ilk görüşü keçirilib. Mərasimi giriş sözü ilə açan tədbirin moderatoru, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə layihənin keçirilmə məqsədi, seçim turları barədə qonaqlara və layihə iştirakçılarına ətraflı məlumat verib. YAP Binəqədi rayon təşkilatının aparat rəhbəri Sevinc Abdullayeva isə layihədə iştirak etmək hüququ qazanmış gəncləri təbrik edərək onlara uğurlar arzu edib.

Daha sonra çıxış edən Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov ölkədə gənclərə göstərilən diqqət və qayğıdan, onların uğurlarından söz açaraq layihə iştirakçılarını daha da aktiv olmağa çağırıb.

"Gənc Psixoloqlar" İctimai Birliyinin baş katibi Rövşən Hümbətov isə layihənin ideyasının necə yaranmasından və onun aktuallığını şərtləndirən əsas amillərdən söz açıb.

Qonaqlar - Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri Elnur Rüstəmov, eləcə də Xəzər Universitetinin dosenti Mail Yaqub açılış mərasimində layihənin ilk ekspert qonaqları qismində çıxış etdiklərindən məmnunluqlarını ifadə edərək, iştirakçıları təbrik ediblər.

Açılış mərasiminin ardından layihə iştirakçıları YAP Binəqədi rayon təşkilatının inzibati binası ilə yaxından tanış olublar. Sonra simvolik olaraq üzərində layihənin loqosunu əks etdirən tort kəsilib və çay süfrəsi açılıb.

Tədbirin sonunda ekspertlərin iştirakı ilə "İnsanı təkmilləşdirən Qərb, yoxsa kamilləşdirən Şərq" mövzusunda müzakirələrə başlanılıb və görüş qarşılıqlı diskussiyalar şəklində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, 2 ay müddətində davam edəcək layihə Azərbaycan və dünyada olan elmi, fəlsəfi və psixoloji nəzəriyyələri diskussiya və təlimlər formasında gənclərə çatdırmaq, onların fəlsəfi biliklərə daha dərindən yiyələnməsini təşkil etmək məqsədi daşıyır.

# "İşgüzar gənclik" layihəsinə yekun vuruldu



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında "İşgüzar gənclik" layihəsinin bağlanış mərasimi keçirilib. Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnsan resursları və təlim şöbəsinin müdir müavini Cahangir Hacıyev, YAP Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, Kempinski Hotel Badamdarın İnsan resursları departamentinin direktoru Fuad Mürsəlov, "ASAN Kadr" Karyera Mərkəzinin rəhbəri Ləman Əhmədova çıxış edərək layihənin aktuallığından, gənclər üçün yaratdığı karyera imkanlarından danışıblar.

Qeyd edək ki, "Gənclərin Həmrəyliyinə Dəstək" İctimai Birliyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi, "ASAN school" könüllülük proqramının "ASAN Kadr" Karyera mərkəzi və YAP Binəqədi Rayon Təşkilatının qarşılıqlı əməkdaşlığı çərçivəsində həyata keçirilən "İşgüzar Gənclik" layihəsinin əsas məqsədi turizm sahəsi üzrə kadrların formalaşdırılmasına töhfə verməkdir.

# “Əsl İslam və islamofobiya” mövzusunda tədbir



Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilati dəstəyi və Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə “Əsl İslam və İslamafobiya” adlı tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Rauf Həsənov, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin məsul əməkdaşı Novruz Nuriyev, 83 saylı məktəb-liseyin direktoru Nəbi Mahmudov, “Gənc İstedadların Maarifləndirməsinə və İnkişafına Dəstək” İctimai Birliyinin sədri Elçin Manafov, “Mərhəmət” Kimsəsizlərə Yardım İctimai Birliyinin sədri Fərhad Əliyev, Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən “ASAN könüllüləri”, ekspert- ilahiyyatçı, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov və rayon fəalları iştirak ediblər.

Tədbirdə ekstremizm və terrorçuluğa qətiyyətlə “yox” deməklə cəmiyyətdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğindən, ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərin bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olmasından danışılıb. Multikulturalizmin Azərbaycan xalqının həyat tərzi olmasından, xalqımızın tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verməsindən söhbət açılıb.

Sonda tədbir iştirakçılarına sertifikatlar təqdim olunub.

# Media qurumları qayğı ilə əhatə olunub




Binəqədi rayonu ərazisində fəaliyyət göstərən media qurumları 22 İyul-Milli Mətbuat Günü münasibəti ilə təbrik olunublar.

Belə ki, Binəqədi rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon Təşkilatı, M.Ə.Rəsulzadə Bələdiyyəsi, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyi, Binəqədi Rayon Bələdiyyəsinin əməkdaşları və “ASAN könüllüləri” “Binəqədi” qəzetinin, “Antenn 101” FM radiosunun və “Teleqraf” agentliyinin tərkibində fəaliyyət göstərən “axar.az”, “publika.az” və “teleqraf.com” portallarının qonağı olublar.

Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilməsi, ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilməsi və bu xoş atmosferin Binəqədi rayonunda da özünü büruzə verməsi görüşlərin əsas müzakirə mövzusu olub.

# “Natiq Ritm Qrupu” ilə görüş



Binəqədi rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının Gənclər Birliyi, “Gənc Psixoloqlar” İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən “Fəlsəfi söhbət” layihəsi çərçivəsində “Natiq Ritm Qrupu” ilə görüş təşkil olunub.

“Ritmin fəlsəfəsi” mövzusunda keçirilən tədbirdə ritm və onun fəlsəfi açıqlaması, milli ritmlərin psixoloji izahı və digər istiqamətlərdə müzakirələr aparılıb, auditoriyanı maraqlandıran suallar qrupun bədii rəhbəri, əməkdar artist Natiq Şirinov tərəfindən cavablandırılıb. Görüşün gedişatında N.Şirinov ona mövzu ətrafında ən maraqlı sual ünvanlayan iştirakçılara müxtəlif hədiyyələr təqdim edib. Qeyd edək ki, görüşə layihə iştirakçısı olmayan gənclərin də qatılmasına şərait yaradılıb.

# “Yaradıcı əllər” layihəsinə yekun vurulub




Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və M.Ə.Rəsulzadə bələdiyyəsinin təşkilatçılığı ilə “Birgə Yaradaq” layihəsi çərçivəsində qəsəbənin yeniyetmə və gəncləri üçün təşkil olunan “Yaradıcı əllər” adlı master-classa yekun vurulub.

Layihənin yekun tədbirində çıxış edən M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri Hümbət Hüseynov bildirib ki, bu layihə bələdiyyənin 2016-cı il Fəaliyyət Planına uyğun olaraq həyata keçirilib. Məqsəd gənc nəslin peşə seçiminin istiqamətləndirilməsi, yaradıcı sənət növlərinin əxz edilməsi, həmçinin gənclərin asudə vaxtının səmərəli təşkilidir. H.Hüseynov vurğulayıb ki, master-class bir ay müddətində davam edib. Onun sözlərinə görə, bu layihə qəsəbə sakinlərində, uşaq və yeniyetmələrdə böyük marağa səbəb olub. Valideynlər oğlanlar üçün də master-classların təşkil edilməsi ilə bağlı müraciət ediblər. Sədr uşaqların marağını nəzərə alaraq, layihənin payız mövsümündən davam etdiriləcəyini diqqətə çatdırıb.

Tədbirdə master-classı aparan peşəkar mütəxəssis, bu sahədə böyük təcrübəsi olan, bir sıra sərgilərin iştirakçısı, M.Ə.Rəsulzadə qəsəbəsinin sakini Bəyim Məmmədovaya da söz verilib. O çıxışında bələdiyyə tərəfindən qəsəbə gənclərinin inkişafına yönələn belə bir təşəbbüsü təqdirəlayiq hal hesab etdiyini bildirib. B.Məmmədova bildirib ki, bu layihənin gənc istedadların üzə çıxarılması və yaradıcılıq potensiallarının artırılmasında böyük əhəmiyyəti olacaq. Valideynlər adından çıxış edən qəsəbə sakini Şəhla Abdullayeva deyib ki, qızının bu təlimlərdə öyrəndiyi, müxtəlif ləvazimatlardan hazırladığı güllər onun üçün ən böyük hədiyyədir.

Tədbirin sonunda layihə iştirakçılarına hədiyyələr təqdim olunub. Yeganə Emilli və Mehriban İsmixanzadə isə fəallıqları ilə seçiliblər. Xatırladaq ki, layihə çərçivəsində iştirakçılar lentlə, xırda muncuqlarla güllərin hazırlanmasını, eləcə də milçə ilə toxumanı öyrəniblər.

# Ay ərzində SMX-ya daxil olan müraciətlərin statistikası

2016-cı ilin iyul ayında Sakinlərin Müraciət Xidmətinə (SMX) daxil olan müraciətlər üzrə statistik rəqəmləri əks etdirən göstəricilər təhlil olunarkən müəyyən edilmişdir ki, cavablandırılmış zənglərin sayı - 2748, birbaşa cavablandırılmış zənglərin sayı – 2280, yaradılmış əks əlaqələrin sayı – 521, günlük orta zəng sayı - 87, tərtib edilmiş şikayət vərəqələrinin sayı – 468 olmuşdur.

Şikayət xarakterli müraciətin 468-nin icrası təmin edilmiş, o cümlədən 370-i və ya 79 %-i tam həll olunmuş, 50-si və ya 10,7 %-i qismən həll edilmiş, 48-i və ya 10,3 %-nə müvafiq izahat verilərək həll edilmişdir.

İyul ayı üzrə daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə müraciətlərin 278-i və ya 59,4 %-i su-kanalizasiya, 72-si və ya 15,4 %-i qaz təchizatı, 49-u və ya 10,4 %-i lift problemləri, 27-si və ya 5,8 %-i sakinləri narahat edən digər məsələlər, 20-i və ya 4,3 %-i elektrik təchizatı ilə bağlı, 11-i və ya 2,3 %-i məişət tullantılar ilə əlaqədar, 7-si və ya 1,5 %-i yaşıllaşdırma idarəsi, 4-ü və ya 0,9 %-i küçələrin işıqlandırılması idarəsi ilə əlaqədar olmuşdur.

Xidmətə daxil olan təşəkkürlərin sayı isə 26 olmuşdur.

# Binəqədili gənc istedad Beynəlxalq Musiqi Festivalında

Heydər Əliyev Fondunun təşəbbüsü ilə iyulun 30-dan avqustun 5-dək Qəbələdə VIII Beynəlxalq Musiqi Festivalı keçirilib. Azərbaycanın hüdudlarını aşaraq beynəlxalq aləmdə geniş şöhrət qazanan bu festival artıq dünyanın mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Böyük tamaşaçı kütləsinin marağına səbəb olan festival musiqi vasitəsilə fərqli insanları sehrinə salaraq, onların qəlblərini riqqətə gətirir.




Növbəti festival çərşivəsində Azərbaycanın və dünyanın dahi sənətkarlarının əsərləri səsləndirilib. Açıq səhnədə və kamera zalında keçirilən musiqi bayramında dünyaşöhrətli musiqiçilərlə yanaşı, gənc ifaçılar da çıxış ediblər. Festivalda Binəqədi rayon sakini, Prezident təqaüdçüsü, adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılan pianoçu Nərmin Nəcəfli də məharətini göstərib. Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini ifa edən istedadlı musiqiçi Beynəlxalq Musiqi Festivalı çərçivəsində yerli və xarici tamaşaçılar üçün fortepiano musiqisi axşamında da bacarığını nümayiş etdirib. Nərminin gözəl ifası musiqisevərlərə unudulmaz anlar yaşadıb və alqışlarla qarşılanıb.



Festivalla bağlı təəssüratlarını bölüşmək üçün Nərminlə telefon əlaqəsi saxladıq. Beynəlxalq Musiqi Festivalına ciddi hazırlaşdığını deyən həmsöhbətimiz belə bir mötəbər tədbirdə çıxış etməyin böyük məsuliyyət tələb etdiyini bildirdi: “Artıq bir neçə müddət idi ki, festivala hazırlaşırdım. Burada dünyanın aparıcı musiqiçiləri çıxış edirlər və bu da gənc musiqiçi kimi məsuliyyətimi daha da artırmışdı. Şükürlər olsun ki, ifam uğurlu alındı. Beynəlxalq festivalın ölkəmizdə keçirilməsinə görə çox sevinirəm. Fəxr edirəm ki, Azərbaycan kimi gözəl ölkəm var. Doğma vətənimi daha da yüksək səviyyədə tanıtmaq üçün bundan sonra da var gücümlə çalışacağam”.

1996-cı il təvəllüdlü Nərmin Nəcəfli musiqiyə uşaq yaşlarından maraq göstərib. 26 saylı musiqi məktəbinin fortepiano şöbəsində təhsil alan gənc ifaçı elə ilk günlərdən istedadı ilə həmyaşıdlarından fərqlənib. Nərmin 13 yaşında Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülüb və adı Azərbaycanın gənc istedadlarının “Qızıl kitabı”na yazılıb. 2004-2007-ci illərdə Bakıda keçirilən müxtəlif müsabiqələrin, Moskva şəhərində 8-12 yaşlı uşaqlar arasında təşkil olunan beynəlxalq musəbiqənin qalibi, Tbilisidə keçirilən beynəlxalq musiqi festivalının laureatı, II və IV beynəlxalq Rastropoviç, 2011-ci ildə III beynəlxalq Üzeyir Hacıbəyli festivallarının iştirakçısı olub.

2008-ci ilin mayında ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş I Respublika müsabiqəsində “Qran-pri”nin sahibi olub. Nərminin Avropada tanınmasında Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirakı böyük rol oynayıb. 2006-cı ildə Parisdə keçirilən “Azərbaycan: mədəniyyətlərin və svilizasiyaların kəsişmə nöqtəsi”, 2008-ci ildə Strasburqda və Brüsseldə təşkil olunan “Azərbaycanın xoşməramlı mələkləri” konsert proqramlarında, İtaliyanın Forte dey Marmi şəhərindəki solo konsertlərdə göstərdiyi məharət onu bir çox ölkələrdə tanıtdırıb və gənc pianoçu xarici müsabiqələrə dəvət alıb.

2010-cu ildə Almaniyada keçirilən beynəlxalq müsabiqədə çıxış edən gənc həmyerlimiz dünyanın bir çox ölkələridən -ABŞ, Almaniya, Böyük Britaniya, Belçika, Yaponiya, Bolqarıstan, Polşa, Rumıniya, Rusiya, İsveç, Portuqaliya, İndoneziya və s. qatılan 38 iştirakçı arasında seçim turundan qalib çıxan 8 nəfərdən biri olub, uğurlu çıxışına görə xüsusi mükafata layiq görülüb. Elə həmin il İtaliyadan dəvət alan N.Nəcəfli Eppan şəhərində solo konsertlə çıxış edib. Konsertdə iştirak edən professor Andrea Bonatta onun ifasını yüksək dəyərləndirib və gənc pianoçunu Polşanın Bidqoş şəhərindəki Paderevski Piano Akademiyasına dəvət edib. Bu mötəbər tədris müəssisəsində professorlar İlya Şeps və Robert McDonalddan ustad dərsləri alan Nərmin şəhərdə təşkil olunan qala-konsertdə Polşa Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Çaykovskinin 1 nömrəli konsertini ifa edib.

2011-ci ildə istedadlı pianoçu Paris Konservatoriyasının professoru Muza Rubatskitenin dəvəti ilə Fransanın Bagnere de Bigorre şəhərində keçirilən Piano Pic və Litvadakı II beynəlxalq Vilnüs fortepiano musiqi festivallarında müvəffəqiyyətlə iştirak edib. 2012-ci ildə İtaliyanın Seregno şəhərində keçirilən beynəlxalq müsabiqədə böyük yaş qrupunda, Estoniyanın Narva şəhərində keçirilən IX beynəlxalq Şopen müsabiqəsində qalib adını qazanaraq diplom və hədiyyələrlə mükafatlandırılıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fransanın Reyms şəhərində keçirilən “Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri” adlı konsert proqramında uğurlu çıxış edib.

İngiltərənin Nyukasl şəhərində baş tutan Gənc pianoçuların V beynəxalq müsabiqəsində I yerə layiq görülən Nərmin 2013-cü ildə Litvanın Kaunas şəhərində keçirilən XXII beynəlxalq festivalda, Almaniyanın Halle şəhərində təşkil olunan Euro Arts festivalının və Gənc pianoçuların Neyqauz adına IV beynəlxalq Moskva festivalında uğurla çıxış edib. 2014-cü ildə Bülbül adına orta-ixtisas musiqi məktəbini bitirən gənc xanım öz arzusu ilə Almaniyanın Hannover şəhərindəki Musiqi, Teatr və Dram Akademiyasının fortepiano şöbəsinə qəbul olunub və professor Bernd Goetzkenin sinfində təhsilini davam etdirib.

Nərminin qalib gəldiyi bir çox müsabiqələr səviyyəsinə görə Avropa Musiqi Müsabiqələri Birliyinə (EMCY) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının siyahısı”na daxil olduğuna görə, o, Bakı Musiqi Akademiyasına imtahansız qəbul edilib. Lakin gənc pianoçu klassik musiqinin əsaslarını öz professionallığı və tədris metodikası ilə dünyada məşhur olan professor Goetzkedən öyrənməyə üstünlük verib. Hazırda Nərmin Nəcəfli Almaniyada musiqi təhsilini davam etdirir.

# Uğurlu gələcək əldə etməyin sirri mükəmməl bilikdir

**Aynur Babayevanın valideynləri düz 23 ildir ki, Biləcəri qəsəbəsində yerləşən köhnə bir zavodun həyətində məskunlaşıb. 16 yaşlı Aynur da neçə illərdir ki, ailsəi ilə birlikdə həmin zavodun həyətində şəraiti olmayan köhnə evdə yaşayır. Amma bütün bunlar onun təhsilə marağını və həvəsini heç vaxt azaltmayıb. Özünün dediyi kimi, bəlkə də ailəsinin yaşadığı maddi və mənəvi problemlər bu istedadlı qızın dərslərini daha yaxşı oxumağa, gələcəyini möhkəm təməl üzərində qurmağa stimul verib. Bir sözlə, didərginlik həyatı yaşayan Babayevlər ailəsi uzun illər bu qədər ürəkdən sevinməyib. Binəqədi rayonundakı 314 saylı orta məktəbin məzunu olan Aynur bu il qəbul imtahanlarında cəmi 1 suala səhv cavab verərək, 692 bal toplayıb.**



Bu günlərdə Aynurgilin ailəsində olduq. Valideynləri və müəllimləri ilə xeyli söhbət etdik. Danışığından da hiss olunurdu ki, Aynur bu nəticəsinə görə çox sevinir. Sən demə, bu istedadlı qız kiçik yaşlarından birinci olmaq istəyirmiş. Şübhəsiz ki, 692 bal elə-belə əldə olunmayıb. İnanırıq ki, Aynur Babayeva bundan sonra da valideynlərinə və xalqına başucalığı gətirəcək.

Aynur 8-ci sinfə qədər Biləcəri qəsəbəsində yerləşən Cəbrayıl rayon Hafiz Fətəliyev adına orta məktəbdə oxuyub. Orta məktəbin ilk illərindən texniki fənlərə böyük marağı olduğunu deyən Aynur sonradan humanitar fənlərə daha çox meyillənib: "Sadəcə, bir müddət riyaziyyat fənnindən zəiflədim. Valideynlərimin köməyi ilə məktəbi dəyişdim. Elə buna görə istədim ki, qrupumu dəyişim, amma sonradan riyaziyyat fənnindən yaxşı qiymətlər almağa başlasam da, yenə üstünlüyü humanitar fənlərə verdim".

Ən maraqlısı isə odur ki, dərslərini yaxşı oxuduğu üçün təhsil aldığı Binəqədi rayonu 314 nömrəli orta məktəbdəki müəllimləri Asif Salmanov (Azərbaycan dili və ədəbiyyat), Ramal Alıyev (tarix), Maral Rzayeva (riyaziyyat), Ruslan Nuriyev (ingilis dili) fənlərindən onu təmənnasız olaraq qəbul imtahanına hazırlaşdırıblar. Aynur əldə etdiyi nəticəni ailəsi ilə yanaşı, həm də müəllimlərinə də hədiyyə edib:

"Ramal müəllim və Asif müəllim ailəmizin maddi durumundan xəbərdar idilər. Daim mənə dəstək olublar. 10-cu sinifdən iştirak etdiyim sınaq imtahanlarının nəticələrini onlar yoxlayıblar, bilmədiyim nə olubsa, onu mənə izah ediblər. Onlar ötən yay tətilində özləri bu fikrə gəlib bizə zəng eləmişdilər. Bu, mənim üçün də böyük sürpriz olmuşdu. Heç gözləmirdim, belə bir şeylə heç vaxt rastlaşmamışdım. Valideynlərim əvvəlcə buna etiraz etsələr də sonradan razılaşdılar. Şükür Allaha ki, hər şey ürəyimcə oldu".

Aynur söhbətində dedi ki, onun təhsil aldığı məktəbdə bu il 11-ci sinfi bitirənlərin sayı çox olmasa da, 8 nəfər 600-dən yuxarı nəticə göstərib. Ən yüksək nəticə isə Aynura məxsusdur: "Məktəbimizin direktoru Nazir Əliyev də mənə dəstək göstərən insanlardandır. Müəllimlərimin əziyyəti sayəsində bu nəti-

**Məktəbimizin direktoru Nazir Əliyev də mənə dəstək göstərən insanlardandır. Müəllimlərimin əziyyəti sayəsində bu nəticə əldə olundu. Mən də çalışdım ki, onların etimadını doğrulda bilim.**

cə əldə olundu. Mən də çalışdım ki, onların etimadını doğrulda bilim. Bu nəticəmi onlara bir hədiyyə kimi də qiymətləndirmək olar. Onu da deyim ki, mənə dəstək olanlar arasında Biləcəri bələdiyyəsinin sədri Hikmət Quliyev də var. Hazırlığa gedəndə dərs vəsaitləri almaq üçün xeyli pul lazım olurdu. Ailəmizin hətta mənə lazım olan dərs vəsaitlərini almağa belə imkanı çatmırdı. Babam və əmim bizə kömək edirdi".

Aynur deyir ki, imtahan zamanı həyəcan keçirməyib. Buna səbəb isə onda özünəinam və ətrafdakıların dəstəyi olub: "İmtahana girəndə ilk 5-10 dəqiqə stress ola bilər. Ümumiyyətlə, imtahan stresi yaşamadım. Səbəb isə müəllimlərim və ailəm tərəfindən daim hiss etdiyim dəstək idi. Mənə heç vaxt deyilməyib ki, filan nəticəni toplasan elə olar, belə olar. Amma həmişə yüksək bal toplamağa layiq olduğumu deyirdilər. Özüm özümə psixoloqluq edirdim. Həm də sınaqlarda göstərdiyim nəticələr də yüksək olurdu. Yüksək nəticələr olduğu üçün qorxmurdum. Ətrafımda hər kəs məndən 700 bal gözləyirdi. Özüm də rekord göstəriciyə ümidli idim. Bilməzdim ki, bir sualla belə olar".

Yüksək nəticənin əldə olunmasının başqa bir səbəbini isə Aynur bütün fikrini dərslərə yönəltməsi, digər əyləncələrdən imtina etməsi ilə əlaqələndirir: "İndiyə qədər heç bir sosial şəbəkədə olmamışam, televizora baxmırdım. Futbolla yaxından maraqlanırdım, amma bu il ondan da tamamilə uzaq düşmüşdüm. Müəyyən qədər cəmiyyətdə gedən proseslərdən, vacib hadisələrdən xəbərim olurdu. İstər-istəməz, danışırdılar, eşidirdim. Amma heç nəyi izləmirdim. İnternet istifadəni özüm üçün qadağan etmişdim. Mobil telefonumdan isə yalnız ailəmlə əlaqə saxlamaq üçün istifadə edirdim. Dərslərimə o qədər bağlanmışdım ki, hətta məktəbimizdə təşkil olunan tədbirlərdə belə fəal olmamışam. Dərslərə hazırlığı hər şeydən üstün tuturdum. Şükürlər olsun ki, əziyyətimin bəhrəsini gördüm. Bu nəticəyə görə Allaha, valideynlərimə, bir də müəllimlərimə minnətdaram. Doğrudan da çəkilən əziyyətin bəhrəsi görülür".

Göstərdiyi nəticədən valideynlərinin də çox sevindiyini deyən Aynurun sözlərinə görə, ali təhsil almayan valideynlərinin işsiz olması və maddi problemlər repetitor xidmətindən istifadə etməyə imkan verməyib. Yəni valideynlərinin çəkdiyi əziyyət Aynura oxumaqdan başqa çıxış yolu buraxmayıb. Aynurun qardaşı və bacısı da 314 saylı məktəbdə təhsil alırlar.

Qəhrəmanımız dövlət və ictimai münasibətlər üzrə ali təhsil almaq niyyətindədir: "Arzuladığım ixtisas üzrə təhsil alaca-



ğam. Magistr təhsilimi isə xaricdə davam etdirmək istəyirəm. Həmyaşıdlarıma da tövsiyəm budur ki, özlərinə inamı itirməsinlər, hədəfləri olsun. İddialı olub məqsədə çatmaq üçün daim irəli getsinlər. Maddi vəziyyətimizin yaxşı olmamasının səbəbi təhsilsizlikdir. Valideylərim bunu gördükləri üçün mənə dəstək oldular. Gələcəkdə ailəmiz üçün çox şey etmək istəyirəm. Özümü ilk növbədə siyasət sahəsində görürəm. Amma alınıb-alınmayacağını hələ ki dəqiq bilmirəm. Maddiyyata o qədər də üstünlük verən deyiləm".

Aynurun fikrincə, savad insan üçün ən vacib şərtlərdən biridir. Uğurlu gələcək əldə etmək üçün mütləq bilikli olmalısan: "Mən imtahan verəcəyim qrupu daxil olmayan fənlərə belə, maraq göstərirəm. Boş vaxtlarımda həmin fənləri də öyrənməyə çalışırdım. Hər bir insanın gələcəyi onun öz əlindədir".

Aynurun ən böyük arzusu ata-baba yurdu olan Qarabağın azad olunmasıdır: "Qarabağ Azərbaycanın dilbər guşəsidir. Sevinirəm ki, bu yurdun yetirməsiyəm. İnşallah, inanıram ki, tezliklə torpaqlarımız düşmən tapdağından azad olunacaq və biz öz yurd-yuvamıza qayıdacağıq".

Söhbətimizə qoşulan Aynurun atası Ramil Baba-

**Qarabağ Azərbaycanın dilbər guşəsidir. Sevinirəm ki, bu yurdun yetirməsiyəm. İnşallah, inanıram ki, tezliklə torpaqlarımız düşmən tapdağından azad olunacaq və biz öz yurd-yuvamıza qayıdacağıq"**

yev qızının uşaqlıqdan dərs oxumağa həvəsli olduğunu dedi: "Aynur həmişə bütün dərslərdən əla qiymətlər alıb. Özünə qarşı məsuliyyətli idi və həmişə çox yaxşı hazırlaşırdı. Ən əsası isə odur ki, heç vaxt müəllimlərinin ondan şikayətini eşitməmişik. Universitet, ixtisas seçiminə qarışmırıq. Özünü harada görürsə, oranı da seçə bilər. Qızımın topladığı yüksək bal bizi çox sevindirdi".

Anası Ruhiyyə xanım da qızının çətin bir şəraitdə yüksək nəticə ilə ali təhsil müəssisəsinə qəbul olduğuna çox sevinir. Qardaşı Əli isə bizə söz verdi ki, bacısı kimi o da valideynlərinə sevinc yaşadacaq: "Bacımın bu nəticəsindən sonra mən də yüksək nəticə göstərmək istəyirəm. Maddi cəhətdən vəziyyət yaxşı olmadığı üçün indiyə qədər hazırlığa gedə bilməmişəm. Bir il hazırlaşacağam. Yaxşı təhsil almaq üçün bacım kimi var qüvvəmlə çalışacağam".

Aynurun Azərbaycan dili-ədəbiyyat müəllimi Asif Salmanov bizimlə söhbətində bildirdi ki, bu istedadlı qız dərsləridə həmişə davranışı və məsuliyyəti ilə seçilib: "Məcburi köçkün olan Aynurgilin şəraiti heç də ürəkaçan deyil. Özünüz də görürsünüz ki, bura köhnə bir zavodun həyətidir. Onun ailəsi maddi cəhətdən çox çətinliklər çəkirlər. Amma bütün bunlara baxmayaraq, Aynur dərslərini həmişə əla oxuyub və məktəbdə nümunəvi şagirdlərdən olub. Bu qızda oxumağa olan marağı biz müəllimlər hiss edirdik. Digər fənn müəllimləri ilə belə qərara gəldik ki, Aynuru qəbul imtahanına təmannasız hazırlayaq. Aynur və ailəsi buna əvvəlcə etiraz etdilər. Atası qızının uğurlu gələcəyi üçün buna çətinliklə də olsa razılaşdı. Şükürlər olsun ki, çəkilən əziyyət hədər getmədi. Aynur ona göstərilən etimadı layiqincə doğrultdu. Yeri gəlmişkən deyim ki, vaxtilə məni də müəllimlərim universitetə təmannasız hazırlayıblar. Həmin vaxt ailəmizin maddi vəziyyəti yaxşı deyildi. Mən Füzuli rayonundan məcburi köçkünəm. Sevinirəm ki, müəllimlərimdən gördüyüm qayğını öz şagirdimə göstərə bildim".

Ramal Alıyev Aynura tarix fənnindən dərs deyib və bir müddət sinif rəhbəri də olub: "Aynur istedadlı və bacarıqlı qızdır. Onun imtahanda bu qədər bal toplayacağına əmin idik. Çünki bu qız öz üzərində ciddi çalışırdı. Bizim məktəbimizdə hər bir şagirdə, xüsusilə istedadlı uşaqlara fərdi yanaşma mövcuddur. Potensialı olan şagirdlərimizlə söhbətlər edirik, onlara tövsiyələrimizi veririk. Ümumilikdə isə şagirdlərimizə qayğı ilə yanaşırıq və bu, bizim borcumuzdur. Əminəm ki, bu cür nailiyyətlərimiz gələcəkdə də olacaq".

İngilis dili fənnindən Aynura dərs deyən Ruslan Nuriyev də şagirdinin yüksək nəticə göstərməsinə görə çox sevindiyini dedi: "Aynur həmişə dərslərinə ciddi yanaşıb. Hesab edirəm ki, savadlı, bilikli olmaq, ali təhsil almaq və gələcəyin bacarıqlı mütəxəssis kimi yetişmək hər bir Azərbaycan gəncinin arzusu olmalıdır. İnanıram ki, Aynur təhsil alacağı ali məktəbdə də çalışqanlığı ilə seçiləcək".

# Günvurmadan necə qorunaq?




Yay ayları hər birimizin səbrsizliklə gözlədiyi fəsillərdəndir. Çoxları bu fəsildə ilin yorğunluğunu çıxarmaq üçün özlərinə istirahət vaxtı ayırırlar. Bir tərəfdən işin gərginliyi, şəhər mühitinin yeknəsəkliyindən yaranan stress, digər tərəfdən isə isti hava insanların səhhətində problemlərə səbəb olduğundan, kimsə dağ rayonlarına, dənizkənarı istirahət zonalarına getməyə üstünlük verir, digərləri isə elə yaşadıqları ərazidə yerləşən park və bulvarlarda dincəlməklə kifayətlənirlər.

Yay fəsli insanlara bəxş etdiyi gözəllikləri ilə yanaşı, bəzən müəyyən diskomfort da yaradır. Bu fəsildə ən çox rast gəlinən xoşagəlməz hallardan biri günvurmadır. Ona görə də gün şüalarından qorunmaq üçün insanlar lazımi tədbirlər görməlidirlər. Günvurma – günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Bu, əksər hallarda başıaçıq şəkildə xeyli müddət ərzində gün altında qaldıqda ciddi fəsadlara gətirib çıxarır.

Binəqədi rayonunda fəaliyyət göstərən 25 saylı şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova bizimlə söhbətində dedi ki, günvurma hadisələri günəş şüalarının, ultrabənövşəyi şüaların təsiri altında baş verir. Onun sözlərinə görə, bu zaman qan təzyiqinin düşməsi nəticəsində hətta insanın bayılmasına da səbəb olur: "Günvurma zamanı mütləq ilkin yardım göstərilməlidir. Yəni zərərverici amilin insan orqanizminə sonrakı təsiri aradan qaldırılmalıdır. Hər şeydən əvvəl gün vuran insanı həmin zonadan dərhal sərin bir yerə gətirmək və ilk tibbi yardım göstərmək lazımdır. Xəstədə hansısa təhlükəli hallar varsa, ilk yardım zamanı onun qarşısı alınmalıdır. Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq. Bundan əlavə, xəstəyə soyuq su içirtmək, üzünü və sinəsini yaş dəsmalla silmək lazımdır. Başına, boynunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompress qoyulmalıdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal "təcili tibbi yardım" çağırmaq lazımdır".

Həkimin sözlərinə görə, huşunu itirdiyi halda, zərərçəkənə naşatır spirti iylətmək, süni tənəffüs vermək tələb olunur. Yay fəslində günvurma ilə yanaşı, istivurmanın da baş verdiyini qeyd edən X.Xəlilova vurğuladı ki, riskli yerdə dayandıqda və bədən temperaturu ilə xarici temperatur arasında fərq əmələ gəldikdə istiliyin daxildə tənzimlənməsi pozulur: "Nəticədə orqanizmdə temperaturun yüksəlməsi baş verir, bu da daxildə həyati funksiyaların pozulması ilə müşahidə edilir. Ona görə də isti vuran şəxsi sərin bir yerə gətirməli, alın və boyun nayihələrinə yaş dəsmal qoyulmalıdır. Günvurma ilə istivurmanın fərqi ondan ibarətdir ki, birincidə fermaniqulyasiya, ikincidə isə istilik mübadiləsi pozulduğuna görə ətrafdakı temperaturla daxildəki temperatur dəyişməsi baş verir".

Həkim insanlara məsləhət görür ki, uzun müddət günəş şüalarının altında qalmasınlar: "Xüsusilə də saat 12-16:00 arasında birbaşa günəş şüalarından uzaq durmaq, daha çox kölgə yerlərdə dayanmaq lazımdır. Yaşlı adamlarda və uşaqlarda resurslar az olduğuna görə, onlar günəş şüasından daha çox qorunmalıdırlar. Uşaqlarda orqanizmin su tutumu az olduğundan və buxarlanma bədən səthindən yüksək olduğundan bayılma hadisələri də baş verə bilər. Yaşlı adamlarda isə orqanizm resursları xeyli tükənmiş olur. Eyni zamanda, onların əksəriyyətində müəyyən xəstəliklər, fizioloji təsirlər olduğu üçün günvurma özünü daha qabarıq şəkildə göstərir. Ona görə də uşaqlar və yaşlılar daha diqqətli olmalıdırlar".

Vətəndaşlar istidən qorunmaq üçün yay aylarında daha çox kondisionerlərdən istifadə edirlər. Bunun isə insan orqanizminə mənfi fəsadları var. X.Xəlilova deyir ki, kondisionerdən istifadə oluna bilər, amma bu zaman müəyyən qaydalara riayət etmək lazımdır. Kondisioner altından birbaşa isti yerə çıxmaq və yaxud da istidən birbaşa kondisioner olan otağa girmək olmaz. Bu, orqanizm üçün ekstremal bir durum hesab olunur. Xüsusilə də avtomobildə kondisionerdən istifadə edən zaman ehtiyatlı olmaq lazımdır. Əks təqdirdə, insanların səhhətində bir çox problemlər yarana bilər.

# İlk qələbə müjdəsi Rüstəm Orucovdan gəldi



Avqustun 1-də Azərbaycan idmançılarından ibarət nümayəndə heyəti XXXI Yay Olimpiya Oyunlarında iştirak etmək üçün Braziliyanın Rio-de Janeyro şəhərinə yola düşüb. Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançılarımızın yolasalma mərasimi keçirilib. Təntənəli mərasimdə Milli Olimpiya Komitəsinin baş katibi Ağacan Abıyev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, bir sıra idman federasiyalarının rəhbərləri, Olimpiya çempionları və idmansevərlər iştirak ediblər. Avqustun 3-də isə Azərbaycan komandasının Olimpiya kəndində salamlanması və bayrağımızın qaldırılması mərasimi baş tutub.

Məlumat üçün bildirək ki, dördilliyin zirvə yarışında dünyanın 206 ölkəsini təmsil edən idmançılar mübarizə aparırlar. Olimpiadaya 57 lisenziya əldə edən 56 Azərbaycan idmançısı (42 kişi, 14 qadın) "Rio-2016"da 18 növdə yarışacaq. London olimpiadası ilə müqayisədə, Azərbaycan idmançıları Rio-da triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunacaqlar. Azərbaycan Olimpiya yığmasının heyətində dünya və Avropa çempionları, Olimpiya mükafatçıları ilə yanaşı, Olimpiya çempionlarımız Toğrul Əsgərov və Şərif Şərifov da yer alıblar.

Xatırladaq ki, 2012-ci ildə Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 16 idman növündə mübarizə apararaq 10 medal (2 qızıl, 2 gümüş və 6 bürünc) əldə etmişdilər. İnanırıq ki, Azərbaycan olimpiyaçıları XXXI Yay Olimpiya Oyunlarında da uğurla yarışaraq Vətənə daha çox medalla dönəcəklər. Artıq arzularımızın doğrulacağına inamımızın artmasına səbəb də var: yarışların ilk günlərində 73 kq çəki dərəcəsində çıxış edən Azərbaycan cüdoçusu Rüstəm Orucovun gümüş medal qazanması bunu deməyə əsas verir.



## Tennis üzrə rayon birinciliyi




Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Binəqədi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, Tennis Federasiyası və Bakı Tennis Akademiyasının dəstəyi ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümünə həsr olunmuş tennis üzrə rayon birinciliyi keçirilib. Bakı Tennis Akademiyasında təşkil olunan yarışda 4 yaş qrupu üzrə oğlan və qızlar qalib adı uğrunda mübarizə aparıblar.

Yarışın bağlanış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Binəqədi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Elnur Məmmədov, Azərbaycan Tennis Federasiyasının əməkdaşı, tennis üzrə yığma komandanın baş məşqçisi Yalçın Manaflı, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Binəqədi rayon Gənclər və İdman İdarəsinin əməkdaşları, idmançıların valideynləri iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edənlər Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibətilə qonaqları və yarış iştirakçılarını təbrik ediblər. Bildirilib ki, hər bir ölkənin ictimai həyatında idman çox mühüm rol oynayır. Ölkəni dünyada tanıdır, dövlətin imicini qaldırır. Yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda böyüməsi, eyni zamanda zərərli vərdişlərdən uzaq olması üçün idman xüsusi önəm kəsb edir.

Sonda qaliblər Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Binəqədi rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom, kubok və medallarla təltif olunublar.

## "Birgə Yaradaq" layihəsi çərçivəsində işlər davam etdirilir

Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə Binəqədi rayonunun bütün inzibati ərazilərində "Birgə Yaradaq" layihəsi çərçivəsində profilaktik -təmizlik işləri uğurla davam etdirilir. Hazırda 95,72, 79- saylı MKİS xidməti ərazisində profilaktik - təmizlik işləri görülür, xidməti ərazisində həyətlərə profilaktik qulluq edilir və dezinfeksiya işləri aparılır. İri qabaritli məişət tullantılarını toplayaraq MKTB-nin xüsusi təyinatlı avtomobillərinin köməkliyi ilə təyinatı üzrə daşınır.



Bu barədə qəzetimizə Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin (MKTB) baş mühəndisi Vəli Əiyev məlumat verib. Onun sözlərinə görə, layihə çərçivəsində təmizlik işlərinin aparılması, ərazilərin alaq otlarından təmizlənməsi, yaşıllıqlara aqrotexniki qulluq göstərilməsi, qabaritlərin daşınması və sair işlərin görülməsi nəzərdə tutulub. Baş mühəndisin sözlərinə görə, MKTB- nin rəhbərliyinin xüsusi tapşırığı ilə xidməti ərazidə aparılan monitorinqlərin nəticələrinə uyğun müvafiq olaraq bəzi MKİS- nin xidməti ərazilərində məişət tullantıları konteynerləri yenilənir və ya texniki qaydalara uyğun təmir - bərpa edilir: "Hazırda 108 saylı MKİS-nin xüsusi təyinatlı işçiləri xidməti ərazidə məişət tullantıları konteynerlərinə profilaktik qulluq göstərir və taktdan düşmüş məişət tullantıları konteynerlərini isə yenidən istismar üçün bərpa edirlər".



Baş mühəndis qeyd edib ki, rayon icra hakimiyyətinin təşəbbüsü ilə gücləndirilmiş iş rejiminə keçilməsi ilə əlaqədar qurumun rəhbərliyi mütəmadi olaraq yerlərdə səyyar toplantılar keçirir. Toplantıda MKTB - rəisinin müvafiq təlimat və xüsusi göstərişi əsasında təmizlik işləri ilə məşğul olan əməkdaşların fəaliyyəti, o cümlədən xidmət etdikləri ərazidə profilaktik-təmizlik işlərinin vəziyyəti və keyfiyyəti təhlil edilir, çatışmazlıqlar müzakirə olunur.

# Sağlam gələcək sağlam qidalanmadan çox asılıdır

Hazırda respublikamızda uşaq qidasının keyfiyyəti ilə bağlı aidiyyatı qurumlar tərəfindən lazımi tədbirlər görülsə də, konkret nəticələr barəsində müxtəlif fikirlər səsləndirilir. Ümumiyyətlə, uşaq yeməklərinin təhlükəsizliyi məsələsi beynəlxalq aləmdə aktual mövzu kimi qalır. Çünki dünya üzrə uşaq ölümündə süni qida məhsullarının payı az deyil. Uşaq qidaları ölkəmizə daha çox Avropa ölkələrindən gətirilir.

Respublikamızda körpə və azyaşlı uşaqların ana südü ilə qidalandırılmanın təmin olunması üçün dövlət səviyyəsində, o cümlədən Səhiyyə Nazirliyi tərəfindən tədbirlər həyata keçirilir. Paytaxtın Binəqədi rayonunda da körpəsinə ana südü verən qadınların sayının artması istiqamətində maarifləndirici seminar və həftələr keçirilir, təbliğat işləri aparılır. Rayon ərazisində fəaliyyət göstərən 11 saylı uşaq poliklinikasının baş həkimi Məlahət İbrahimovanın sözlərinə görə, körpələrin qidalanması məsələsi kifayət qədər aktual bir problemdir: "Uşaqların sağlamlığı, böyümə və inkişafı, gələcəyi və ömür uzunluğu bilavasitə onların düzgün qidalanmaları ilə bağlıdır. Körpələr üçün ən ali qida ana südüdür. Heç nə ana südünün yerini verə bilməz. Ana südünün tərkibində elə maddələr var ki, o, heç bir qidada yoxdur. Məsələn, əsəb sisteminin inkişafı üçün oraxedol turşusu var ki, o, baş-beyin formalaşmasının mənbəyidir. Təəssüf ki, çox vaxt ya anaların südü olmur, ya da onun südü uşağa kifayət etmir. Belə olan halda, körpələrin qidalanması üçün ana südünü əvəzedicilər hazırlanır. Bu qida-süd qarışıqları uşaq orqanizmində maddələr mübadiləsinin incəlikləri nəzərə alınmaqla elmi əsaslarla hazırlanır. Lakin unutmaq olmaz ki, bu qarışıqlar uşağın inkişaf müddəti (həftələr-aylar) nəzərə alınmaqla tərtib olunur. Ona görə də hər bir körpə üçün hansı ana südü əvəzedicisinin verilməsi ancaq pediatrlar tərəfindən təyin edilməlidir".



Müsahibimizin sözlərinə görə, uşaq qidalarının satışı zamanı sanitariya-gigiyenik tələblərə ciddi riayət edilməlidir. Unutmaq olmaz ki, körpələrin həyatı həmin qidalardan asılıdır və bu sahədə ən vacib nəzarət forması bu işlə məşğul olan şəxsin öz vicdanıdır. Məişətdə uşaq qidalarının düzgün daşınma və saxlanması, istehlak müddətinə riayət edilməsi, eləcə də onların qaydalara uyğun hazırlanması və vaxtında yedizdirilməsi də vacib şərtlərdəndir. M.İbrahimova hesab edir ki, əgər 6 aydan, 1 ildən sonra ana südü kəsilərsə, uşaqların qidalanması pediatrların məsləhəti ilə aparılmalıdır: "Son tədqiqatlar göstərir ki, döşlə qidalandırmanın uşağın dünyaya gəlməsindən sonra 1 saat ərzində başlanması neonatal ölüm riskinin təqribən 3 dəfə azaldılmasına kömək edir. Altı aya qədər yalnız döşlə qidalandırılma 5 yaşa qədər uşaqlarda ölüm hallarının 13-15%-nin qarşısını ala bilər. Yeddi aydan başlayaraq müvafiq əlavə qidanın verilməsi ilə bərabər döşlə qidalandırmanın 2 yaşa qədər və daha artıq davam etdirilməsi ölüm riskini 6 % və daha çox azalda bilər. Süd qarışıqları uşaqlara yaş qrupuna uyğun verilməlidir. Süni qidalar bəzən körpələrdə mədə-bağırsaq, böyrək xəstəliklərinə yol açır, uşaqlar artıq çəki problemi ilə üzləşirlər. Bir sözlə, keyfiyyətli uşaq qidası gələcək nəslin sağlamlığının təminatçısıdır. Bu baxımdan, gələcəyin insan kapitalına -körpələrin düzgün qidalanmasına ciddi yanaşmalıyıq".

M.İbrahimova körpəsini ana südü ilə qidalandıran qadınların sayının artması üçün Binəqədi rayonunda silsilə tədbirlərin həyata keçirilməsindən də danışdı: "Bu işdə maarifləndirməyə böyük ehtiyac var. Biz ana südünün əhəmiyyəti barədə doğum evlərində, qadın məsləhətxanalarında davamlı təbliğat işləri aparırıq. Mütəmadi olaraq analarla və ana olmağa hazırlaşan gənc xanımlarla seminar və həftəliklər keçirir, bununla bağlı bukletlər paylayırıq".

Binəqədi sakini, gənc ana Nəzrin Hüseynova bizimlə söhbətində bildirdi ki, o, 3 uşaq anasıdır, körpələrini ana südü ilə qidalandırıb: "Ana südü uşaq üçün çox əhəmiyyətlidir. Uşaq ana südü ilə qidalananda normal inkişaf edir, bütün xəstəliklərdən uzaq olur, bədəni möhkəmlənir. Ana südünü heç nə əvəz edə bilməz. Məhz bunun nəticəsidir ki, övladlarım intellektual və fiziki cəhətdən hərtərəfli inkişaf ediblər". Digər rayon sakini Mehriban Şükürova isə südü olmadığına görə övladlarını süni qidalarla böyüdüb. O hesab edir ki, məhz bu səbəbdən də uşaqları tez-tez xəstələnir: "Oğlumun 12, qızımın isə 8 yaşı var. Onların hər ikisi immunitet zəifliyindən əziyyət çəkir. Elə bil harada bir xəstəlik varsa, tez onları tapır. Düşünürəm ki, övladlarıma körpə vaxtlarında süni qidalarla böyütməyim onların sağlamlığında öz əksini göstərir".

Mütəxəssislərin fikrincə, ana uşağa süd əvəzinə süni qida verməklə uşağın bağırsaq florasının pozulması və digər xəstəliklərə yoluxması üçün, bir növ, şərait yaratmış olur. Araşdırmalara görə, süd verən analarda uşaqlıq və yumurtalıq xərçənginə yoluxma risqi, öz övladını süni qidalarla bəsləyən analara nisbətən qat-qat az olur. Analar səhvən hesab edirlər ki, uşağı əmizdirdikləri üçün arıqlamır, əksinə, kökəlirlər. Əslində isə əgər ana düzgün qidalanırsa və uşağına süd verirsə, o, arıqlayır. Ana südünün 50 faizi ananın yağ toxumasından yaranır, digər 50 faizini isə ananın qidalandığı yeməklər təşkil edir. Bu isə ananın yağ toxumasının əriməsi, başqa sözlə desək, ananın arıqlaması deməkdir. Sözsüz ki, hər şeydən əvvəl uşağı ana südü ilə böyütmək ailənin maddi yükünü də qismən azaldır. Müasir şəraitdə bir körpə üçün mağazadan alınan aylıq yemək 250-300 manat təşkil edir. Bu rəqəm isə ailə üçün əhəmiyyətlidir. Ən əsası isə odur ki, ana südü ilə bəslənən uşaqlar həyatı boyu xəstəliklərə qarşı daha davamlı olurlar. Bu cür qidalanmanın mənəvi, ülvi hisslərlə dolu olan tərəfləri də var. Yəni ana südü ilə böyüyən uşaqla ana arasında mənəvi bağlılıq əmələ gəlir. Bu cür bağlılıq dünyada başqa heç bir varlıq arasında yarana bilməz. Ana ilə körpənin sıx bağlılığı (əmizdirmək, lay-lay demək, körpə ilə xoş dəqiqələr keçirmək və s.) ananın rahatlığı, körpənin xoşbəxt böyüməsi deməkdir.

# Günü-gündən abadlaşan Binəqədi

Binəqədi rayonu, Azadlıq prospekti ərazisində abadlıq işləri uğurla davam etdirilir. Hazırda məmunluq doğuracaq bir sıra işlər həyata keçirilib və yaxın zamanlarda prospektdə yenidənqurma işlərinin başa çatması gözlənlir. Görülən işlərin bir hissəsinin görüntülərini oxucularımıza təqdim edirik.















Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

## İnsan qanından alınmış elektrik enerjisi

Bir qrup mütəxəssis insan qanından elektrik enerjisi almağa nail olduğunu bəyan edib. Laboratoriya müşahidələrinin təşəbbüskarları İsveçdəki Malmö Universitetinin və Rusiya Federasiyasındakı Kurçatov İnstitutunun klinik mərkəzlərinin əməkdaşları olub.

Ekspertlər qan axınından elektrik cərəyanı almağa imkan verən unikal yanacaq elementini sınaqdan keçiriblər. Qeyd etmək lazımdır ki, yanacaq komponentinin tərkibinə boruşəkilli iki qrafit elektrod daxildir. Bu elektrodların hər biri insan qanının axması nəticəsində baş verən kimyəvi reaksiyada iştirak edir. Yeni təcrübə bir nəfər könüllünün köməyi ilə reallaşdırılıb. Respondentin dirsək venasına içərisində yanacaq elementi olan kateter daxil edilib. Sonra həkimlər bu unikal komponentə e-ink displey qoşublar.

Cərəyanın gərginliyi və gücü mütəxəssisləri hələ o qədər də qane etmir, lakin tədqiqatçılar bu göstəriciləri artırmaq məqsədilə yaxın gələcəkdə əlavə sınaqlar keçirilməsini planlaşdırırlar.



## Növbəti nəsil "iPhone" şüşə korpusla təchiz ediləcək

Daha çox "Foxconn" brendi kimi tanınan "Hon Hai Precision Industry" şirkəti "iPhone" smartfonu üçün şüşədən korpus hazırlayır. Bu haqda Yaponiyanın "Nikkei" nəşri yazıb.

2017-ci ildə "Apple" şirkəti aparatı şüşə korpusa yerləşdirməklə "iPhone"un dizaynını dəyişdirməyi planlaşdırır. Bu yeniliyə imza atmaq istəyən şirkət istehlakçıların marağını geri qaytarmaq barədə düşünür.

"Nikkei" nəşrinin mənbəyi dəqiqləşdirib ki, "Foxconn" 2015-ci ildən şüşə korpusların hazırlanması ilə məşğul olur.

Bundan əvvəl mənbələr yazır ki, 2017-ci ildə "Apple" şirkəti metal çərçivə ilə haşiyələnmiş şüşə panellərdən ibarət korpusla təchiz edilmiş "iPhone" smartfonu buraxacaq. Həmçinin qurğu maye kristal ekranla deyil, "OLED" texnologiyasına əsaslanan ekranla təchiz ediləcək. Bütün bu dəyişikliklər nəticəsində qurğunun çəkisi azalacaq və onun enerji effektivliyini yüksəldəcək.





## Adamların əksəriyyəti normadan çox yeyir

Son on ildə adamlar daha az kalorili yeməklər yesələr də, piylənmə ildən-ilə artır.

"BIT" şirkətinin əməkdaşları bunun səbəbini öyrənməyə çalışıblar. Tədqiqat göstərib ki, adamların əksəriyyəti özləri də hiss etmədən normadan çox yeyir.

Yaşlı insanın qida rasionunda orta hesabla 2000 kalori olmalıdır. Fiziki əməklə məşğul olan kişilərə daha çox, ofisdə əyləşən qadınlara daha az kalori lazımdır. Alimlər müəyyən ediblər ki, insanlar gündə orta hesabla təxminən 3000 kalori qəbul edir, yəni normadan 150 faiz çox yeyirlər.

Qidada kalorinin miqdarına nəzarət etmək asandır, bunun üçün sadə həqiqəti dərk etmək kifayətdir. Şirniyyat həmişə kalorilidir. İki konfetdə suda bişmiş böyük ət tikəsində olduğu miqdarda kalori ola bilər. Yarım litr kolada 200 kalori var. Bulkada da eyni miqdarda kalori var. Məhz bu cür məhsullar normadan çox yeməyin həcmini təşkil edir.

Rafiq Təvəkkül oğlu Məmmədova verilən Əfqanıstan müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır
ETİBARSIZ SAYILIR